Adil Həsənoğlu

## Salam, a yurd yeri...

Salam, a yurd yeri! Salam, a dağlar!
Yağı tumarına öyrəşdinizmi?
Bəlkə də biz bir az qorxaq tərpəndik,
Siz necə, düşmənə direşdinizmi?

Salam! Tozu əldə qalan kəpənək,
Çiçəkdən çiçəyə qonursanmı heç?
Ay, qoyub gəldiyim piltəli çıraq,
Gecələr daxmamda yanırsanmı heç?

Salam, Araz boyu şütüyən qatar,
Səni duracaqda gözləyən varmı?
Salam, a kimsəsiz toy çadırları,
Bəy-gəlin şəninə tost deyən varmı?

Salam, ay Həkəri! Salam, ay Bəsit,
Suların rahatca axırmı indi?
Vətəndən vətənə boylanan Araz
Qürbətdən vətənə baxırmı indi?

Salam, Şükürataz!Salam, ay Süsən,
Sizləri bir daha görəcəmmi mən?
Taxıb zirvələrə milli bayrağı,
"Ox!",deyib,rahatca öləcəmmi mən?

## Bahar qız gözləmir daha Novruzu

**(Son 30 ildə ilk dəfə məhəlləmizdə nə çərşənbə tonqalı çatıldı, nə də qapımıza papaq atıldı)**

Daha məhəllədə tonqal çatılmır,
"Ağırlıq-uğurluq" alışmır odda.
Daha qapılara papaq atılmır,
İndiki qapılar hamısı kodda.

Saqqalı dizinə çatıb Kosanın,
Keçəl də başına əkdirbdi tük.
Səməni toxumluq buğdadan deyil,
Davullar cırıqdı, zurnalar sönük.

Süni yumurtayla döyüşmək əbəs,
Döyüşən bilir ki, uduzacaqdır.
Çərşənbə sabahı arzularını,
Axar suya desən pul yazacaqdır.

Get-gəllər azalıb qonum-qonşuya,
Heç kimin ürəkdən gülməyir üzü.
Yurdu yağılara əsir düşəndən,
Bahar qız gözləmir daha Novruzu.

## Deyirsiz?

Salam, o dünyada olan dostlarım,
Sizlər də bu dünya varmı deyirsiz?
Salam, Məcnunları qarğımışlarım,
Orda da Leyliyə yarmı deyirsiz?

Sizin tərəfdə də halal, haram var?
Sizdə də keşişlər, Əsli,Kərəim var?
Ordada ov edən, ovu vuran var?
Siz də ov quşuna sarmı deyirsiz?

Sizdə də alışıb yananlar varmı?
Bir sözdən bir fikri qanalar varmı?
Sizdə də fəsillər çox künahkarmı,
Siz də hər yağana qarmı deyirsiz?

Orda da ədalət oyuncaqdımı?
Orda da yeməklər doyuncaqdımı?
Orda da tabutlar sığınscaqdımı,
Orda Adillərə karmı deyirsiz?

## Bu yurd məni yaman çəkir

Ulartısı qulağımda,
Bu qurd məni yaman çəkir.
Min-min gözəl yurd içində,
Bu yurd məni yaman çəkir.

O yalançı sərhədləri,
Bir gün aşıb keçəsiyəm.
Mən o yurdun öz gündüzü,
Mən o yurdun gecəsiyəm.

Haram toxum o toprpaqda,
Barın vermir, getməliyəm.
O yurd məni soraqlayır,
Mən o yurda yetməliyəm.

Bilirəm ki, oğlum tapmaz,
Alaq basmış cığırları.
Əmrini ver, Baş komandan,
Mən sağ ikən gedim barı.

## "Ağıllı ol" deyənlərə...

Bizi geridə saxlayan,
Elə ağılmış, qadası.
Ağıllı ol, yaxşı yaşa,
Köhnə nağılmış,qadası.

Ağıllılar düşüncə,
Dəli çayı keçmədimi?
Söylə, bizim ağlımıza,
Dəli arşın ölçmədimi?

Başa ağıl yüklənəndə,
Ağırlığın bədən çəkir.
Mədən düşəndə qabağa,
Ürək nər dərd, nə qəm çəkir.

Unudub qurd ulartısın,
Kabablıq qoyun sevənik.
Ağıllını daşa basıb,
Dəlinin boyun sevənik.

## Təbiət bizə bənziyir

Külək özünü qarsıdır,
Mehi də mehə oxşamır.
Yağmır daha nur damcılar,
Şehi də şehə oxşamır.

Dodaqları cadar dəniz,
Çaylaqdan su umur indi.
Dağda da dağlıq qalmıyıb,
Yamaca sığınır indi.

Gəlib-gedəni azalıb,
Yol, çığır izə bənziyir.
Tanrı əlin çəkib deynən,
Təbiət bizə bənziyir.

## Çox qəribə yoldu bu yol...

Çox qəribə yoldu bu yol,
Gedəni bol, qayıdan yox.
Çox qəribə yoldu bu yol,
Yuxuladın, ayıldan yox.

Çox qəribə yoldu bu yol,
Əvvəl mütləq sona gedir.
Hər şey Ona hesablanıb,
Hər şey sonda Ona gedir.

Çox qəribə yoldu bu yol,
Burda hər iz bərabərdi.
Burda zaman ölçüsü yox,
Gecə, gündüz bərabərdi.

Çox qəribə yoldu bu yol,
Ruh tək gedir, bədən yoxdu.
Hamı deyir cənnət orda,
Heç könüllü gedən yoxdu.

## Şairlər sevgi şeirləri yazmağa məhkumdurlar...

Səni qaçırıram xəyallarımda,
Ümiddən ufacıq daxma tikirəm.
Otaqlar qaranlıq olmasın deyə,
Gözümdən gözünə işıq çəkirəm.

Beləcə tapırıq bir-birimizi,
Gizlənpaç oynayan uşaqlar kimi.
İlıq təbəssümün dönür günəşə,
Tavandan asırıq çıraqlar kimi.

Bu çıraq altında, bu nur selində,
Bizi qucaqlayan qollar tapırıq.
Sevgiylə süfrəyə uzanan əllər,
Sevgidə kəsişən yollar tapırıq.

Qapını döyəndə boran qar belə,
Sevgimiz əridir buz baxışları.
Qırovlu şüşədə birgə çəkirik,
Sevgi naxışları, söz naxışları.

Birlikdə əlimiz açılır göyə,
Birlikdə dualı dilə dönürük.
Tanrının cızdığı yoldan çıxırıq,
Tanrının cızdığı yola dönürük.

## Zəngilan Mincivan arası yolun

Orda bir yol var uzaqda,
O yol bizim yolumuzdur.
Getməsək də, varmasaq da,
O yol bizim yolumuzdur.
Gör neçə payızdır, gör neçə bahar,
Əzir qürurunu yad pıçıltılar.
"Dön!" deyən səsində bir hıçqırıq var,
Zəngilan Mincivan arası yolun.

Şəninə deyilən gözəl tostları,
Çoxdan unudubdur köhnə dostları.
Çıxıb marşrutdan avtobusları,
Zəngilan Mincivan arası yolun.

Əlləri bağlıdır, baxışı naçar,
Yadların dilində çətin dil açar.
Yanından fit verib şütümür qatar,
Zəngilan Mincivan arası yolun.

Çinarının qəddi tamam əyilib,
Palıdının bəbəkləri oyulub,
Daş sinsəi sel-sulardan ovulub,
Zəngilan Mincivan arası yolun.

Təpik döyür sinəsinə bir naşı,
"Gəl, gəl!"-deyir, hər cığırı, hər daşı,
Tez çatmasaq pozulacaq yaddaşı,
Zəngilan Mincivan arası yolun.

Qaçır ömür adlı qəsdimə qaçır,
Ocağı görünməz tüstümə qaçır.
Ağacı yuxumda üstümə qaçır,
Zəngilan Mincivan arası yolun.

"Dərdimi bir anla, bircə bil"-deyir,
"Daha gözləyəcəm ne il?"- deyir.
Daşları dil açıb: "Oğul,gəl!"-deyir,
Zəngilan Mincivan arası yolun.

Yalançı "ah"ları çəkmə uzaqda,
Donur budaqları qışda, sazaqda.
Qolları nə qədər qalsın tuzaqda,
Zəngilan Mincivan arası yolun?
Dəyir nəfəsinə yağı nəfəsi,
Düşmən caynağında yanır sinəsi,
Dəymir qulağına "Vağzalı" səsi,
Zəngilan Mincivan arası yolun.

Ömrümüzün xoş çağından yadigar,
Cövhərində Oxçu, Bəsit dadı var.
Budağında neçə cavan adı var,
Zəngilan Mincivan arası yolun.

O budaqlar min cavana "Gəl!"-deyir,
"Öləndə də yurd yolunda öl"-deyir.
"Harda qaldı o yzanan əl?"- deyir,
Zəngilan Mincivan arası yolun.

On bir kilometr yol deyil, əlbət,
Gözə nur yeridir, ruha ibadət,
Döyməz qapısını bizsiz ədalət,
Zəngilan Mincivan arası yolun.

Zülmətdən qurtulan gündüzü olar,
Bir açıq səması, göy üzü olar.
Bu payız sonuncu payızı olar,
Zəngilan Mincivan arası yolun.